# AZƏRBAYCANDA İNFORMASİYA MÜHƏNDİSLİYİ VƏ KİTABXANA-İNFORMASİYA FƏALİYYƏTİ

***Hicran Oqtay qızı Zeynalova***

*Bakı Dövlət Universiteti, müəllim*
*hicran.zeynalova.77@mail.ru*
*ORCID: [0000-0002-0783-2315]*

***Nahidə Əlirza qızı Malikova***

*Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kollec, müəllim*
*Nahida.mikayilova.76@mail.ru*
*ORCID: [0009-0003-5658-9125]*

***Açar sözlər:*** *informasiya mühəndisliyi, kitabxana-informasiya texnologiyaları, elmi məktəb, Azərbaycan kitabxanaları, informasiya prosesləri*

***Ключевые слова:*** *информационная инженерия, библиотечно-информационные технологии, научная школа, азербайджанские библиотеки, информационные процессы*

***Keywords:*** *ınformation engineering, library and information technologies, scientific school, Azerbaijani libraries, information processes*

**Xülasə:** Azərbaycanda kitabxana-informasiya elminin elmi tədqiqi və tədrisi 20-ci əsrin əvvəllərindən başlanmış və 1947-ci ildə Bakı Dövlət Universitetində ali təhsilli mütəxəssislərin hazırlanması ilə daha da inkişaf etdirilmişdir. Ənənəvi kitabxana-informasiya fəaliyyətinə yeni və mütərəqqi metodların tətbiqi müstəqillik illərinə təsadüf edir. Bu təşəbbüsdə professor A.Xələfovun elmi məktəbinin nümayəndələrinin böyük rolu olub.

Məqalədə kitabxana-informasiya fəaliyyətində yeni texnologiyaların tətbiqi, xüsusən də informasiya mühəndisliyi metodologiyalarının öyrənilməsi məsələləri öz əksini tapmışdır.

**Резюме:** Научное изучение и преподавание библиотечно-информационного дела в Азербайджане началось в начале XX века и получило дальнейшее развитие с подготовкой высокообразованных специалистов в Бакинском государственном университете в 1947 году. Внедрение новых и прогрессивных методов в традиционную библиотечно-информационную деятельность относится к годам независимости. Большую роль в этой инициативе сыграли представители научной школы профессора А. Халафова.

В статье отражены вопросы применения новых технологий в библиотечно-информационной деятельности, в частности, изучение методологий информационной инженерии.

**Summary:** Scientific study and teaching of library and information science in Azerbaijan began in the early 20th century and was further developed with the training of highly educated specialists at the Baku State University in 1947. The introduction of new and progressive methods in traditional library and information activities dates back to the years of independence. Representatives of the scientific school of Professor A. Khalafov played a major role in this initiative. The article reflects the issues of applying new technologies in library and information activities, in particular, the study of information engineering methodologies.

Azərbaycanda kitabxana-informasiya fəaliyyətinin elmi əsaslarla öyrənilməsi və tədrisi XX əsrin əvvəllərindən başlanır və 1947-ci ildə Bakı Dövlət Universitetində ali təhsilli mütəxəssislərin hazırlanması ilə daha da genişlənir. Ənənəvi kitabxana-informasiya fəaliyyətinə yeni və proqressiv metodların tətbiqi işi Azərbaycanda XX əsrin 60-cı illərinin ortalarından başlanır və Sovet kitabxanaşünaslığı çərçivəsində çox da böyük ugur qazanmır.

Müstəqilliyin bərpa olunması ilə Azərbaycanda bir çox sahələrdə yeniliklərin tətbiqi müşaidə olunur, eləcə də kitabxana-informasiya xidmətinin təşkilində paradiqmalar dəyişdirilir. İnformasiya təminatı sahəsində dünya təcrübəsinin öyrənilməsi, təcrübənin qiymətləndirilməsi və tətbiqi sahələrində yeni metodikalar hazırlanır.İnformasiya mühəndisliyi konsepsiyasının hazırlanması və kitabxana-informasiya fəaliyyətində onun tətbiqi məsələləri də Azərbaycan alimlərinin elmi əsərlərində öz əksini tapır.

Hazırki məqalə respublikanın kitabxana-informasiya fəaliyyətində elmi, nəzəri və təcrübi problemlərin öyrənilməsi istiqamətində informasiya mühəndisliyi konsepsiyasının əhəmiyyəti və perespektivlərini öyrənir. Tədqiqatçı və kitabxanaşunas alimlərin bu istiqamətdə məqalələri, dərslik və monoqrafiyaları təhlil edilir. Tədqiqatçıların irəli sürdüyü yeni konsepsiya, bu istiqamətdə yazılmış məqalələr, konfrans çıxışları və elmi manaqrafiyalar təhlil olunaraq informasiya-sənəd menecmenti fəaliyyəti sahəsində mütəxəssislərin kadr hazırlıgı sahəsində əhəmiyyətli rolu qeyd edilir.

Azərbaycan kitabxanalarında yeni, informasiyanın emalı texnologiyaları 1960-cı illəein ortalarına təsadüf edir. Respublika elmi-texniki kitabxanasında və Elmlər Akademiyasının Mərkəzi kitabxanasında "məlumatın seçilmiş paylanması" layihəsi öyrənilir, tətbiq edilir və nəticələri təhlil olunur. Sovet Hakimiyyətinin dövlət sifarişi olaraq Moskva mütəxəssislərinin irəli sürdüyü layihə əsasında tətbiq olunan bu metod geniş vüsət almır.

1990-cı illər postsovet respublikalarında mürəkkəb, ziddiyyətli illər hesab edilir. Kitabxanalardakı nomenklatur ədəbiyyat dünya ədəbiyyatı ilə əvəz edilir, senzura aradan götürüldükcə oxucuların ixtiyarına demək olar ki, hər gün yeni nümunələr təqdim olunurdu. Bu dövrdə mütəxəssislərimiz elmi-nəzəri biliklərini kitabçılıq təcrübəsinə tətbiq etmək, azad bazar münasibətlərində özünü sınamaq və yüksək tirajlı kitab nəşrini həyata keçirmək sahəsində geniş fəaliyyət göstərirlər. Bir sıra mütəxəssislərimizin nəşr etdiridiyi on minlərlə nüsxə kitab rusdilli məkanda yayılır və kitabçılıq işində elmi yanaşmanın uğurunu ifadə edirdi. 2000-ci illərdə dos. P.Kazimi elmi tərcümələrlə məşğul olur. Samuel Kramerin "Tarix şumerdən başlanır"[1] kitabını və akademik Maksakovskinin "Dünyanın coğrafi mənzərəsi" adlı kitabını azərbaycan dilinə tərcümə edərək çap etdirir. [2] Eyni zamanda "Azərbaycan-Rus və Rus-Azərbaycan universal lüğəti"[3] üzərində işləyir. Lüğətin ərsəyə gəlməsinə xeyli zaman sərf olunur, nəhayət 2002, 2004 və 2006-cı illərdə kitabın üç müxtəlif nəşri Bakı şəhərində işıq üzü görür. 2008-2009-cu illərdə "Azərbaycan-Rus və Rus-Azərbaycan universal lüğəti" Moskva şəhərinin "Tolmaç"nəşriyyatında iki dəfə çap olunur.

Dos.P.Kazimi informasiya mühəndisliyi konsepsiyası ilə məşğul olmasını belə izah edir: "1990-cı illərin sonları idi, professor Abuzər Xələfovla "Kitabxanaşünaslığa giriş" fənninin tədris proqramı ilə əlaqədar geniş müzakirələr aparırdıq. Müzakirə zamanı professor A.Xələfov İ.Yüzvişinin "İnformasiyalogiya" kitabını mənə verib dedi ki, bu çox qiymətli kitabdır, oxu – harada səhv etdiyini anlayacaqsan. Beləliklə, mənim informasiya mühəndisliyi konsepsiyası[4] ilə bağlı fikirlərim meydana gəldi".

Göründüyü kimi, müasir informasiya proseslərinin geniş palitrası Azərbaycan mütəxəssisləri tərəfində öyrənilir və mütəmadi beynəlxalq sahə konfranslarında təqdim edilir.Tədqiqatçılarımızın "İnformasiya mühəndisliyi" mövzusunda araşdırmaları davam etməkdədir. 2022-ci ilin yekunlarına görə Bakı Dövlət Universitetində humanitar və ictimai elmlər üzrə "İlin alimi" adına BDU-nun tanınmış kitabxanaşunas alimləri layiq görüldülər.[5] Bu nəticələr İnformasiya-sənəd menecmenti fakultəsinin multidistiplinar universitetdə əldə etdiyi böyük uğur hesab edilir.

Bu gün Bakı Dövlət Universitetinin İnformasiya-sənəd menecmenti fakültəsinin aparıcı alimləri akademik reytinqinə görə H indeksi və elmi isnadlarına görə qabaqcıl yerlərdən birini tuturlar. Elmi kirabxanaların bibliometrik və elmmetrik təhlillərlə məşgul olması sahəsində metofiki tövsiyələr hazırlanır və təlimlər keçirirlər. Müasir kitabxana-informasiya fəaliyyətinin elmi əsaslarla öyrənilməsi, texnolojı metodlara yanaşma paradiqması, yaşıl kitabxanalar konsepsiyası, Ali məktəb kitabxanalarının spesifikası tədqiqatların diqqət mərkəzindədir.

**Ədəbiyyat**


1. *Kazimi, P. F.* (2011). Information engineering in library activity. B. BSU.

2. *Kramer S. Tarix Şumerdən başlayır*. Müəllif: *Kramer* Samuel Noah.(tərcümə edəni P.Kazimi) Bakı. 2009. ISBN: 5-02-016729-0. S: 280.

3. *Kazimi, P. F., & Gurbanov, A. I.* (2022). Today's factors of user satisfaction with library services and their quality. *Scientific and Technical Libraries*, (2), 109-122.

4. *Kazimi, P. F.* O. (2025). Dynamics of Science Development in Azerbaijan 2023-2024 (Primary Scientometric Analysis). *Journal of Management World*, *2025*(1), 255-257.

5. *Агамирзаев, А. Ч.*, & *Казими, П. Ф.* (2023). Последний из «могикан» советского библиотековедения.(К 90-летию памяти профессора АА Халафова). *Научные и технические библиотеки*, (12), 124-134.

6. *Rzayeva, Z.*, & *Balayeva, E.* Bilgi və Bəlgə Yönətimində "İnformasiya Mühəndisliyi" Konsepsiyası. *Akademik Tarih ve Düşünce Dergisi*, *11*(3), 1903-1910.